# Bol məhsul yetişib

Bu il yay fəsli çox isti və quraqlıq keçsə də bağlarda rayonumuza xas olan bütün meyvə ağaclarında bol məhsul yetişib. Hazırda əsasən fındıq yığımının qaynar çağıdır. Bağbanların sözlərinə görə fındıq məhsulu əvvəlki illərdən daha boldur. Elə müşahidələrimiz də bunu sübut edir.

Fındıq məhsulu hələ keçmişdən Qəbələ əhalisinin dolanışıq səviyyəsində mühüm yer tutur. Bu məhsula həmişə tələbat var. Ölkəmiz müstəqillik əldə etdikdən sonra digər məhsullar kimi fındıq da xarici bazarlara birbaşa çıxarılır ki, bu da onun kəndli üçün münasib qiymətə olmasında böyük rol oynayır. Yüksək kalorisinə, uzun müddət keyfiyyətini itirməmək xüsusiyyətinə görə fındığa xarici bazarlarda olduğu kimi daxildə də həmişə ehtiyac var.

Süfrələrimizin bəzəyi olan paxlava, şəkərbura, tort və sair şirniyyatların hazırlanmasında da fındıqdan geniş istifadə olunur.

Bir sözlə, bu qiymətli məhsulun yığımı və tədarükü sürətlə davam edir.

**“Qəbələ”**

# Nə yaxşı ki...

Yaxın günlərin söhbətidir. Ömür-gün yoldaşım yıxılaraq başından ağır zədə almışdı. Vəziyyəti getdikcə ağırlaşmağa başladı, təzyiqi yüksəldi. Vaxtı itirmədən rayon mərkəzi xəstəxanasının təcili yardım şöbəsinə zəng vurduq. Sanki təbiət də o gecə atını oynadırdı. Güclü yağışın sel suları gecənin qaranlığında hər tərəfi ağuşuna almışdı. Əl tərpətmək olmurdu.

Belə bir çətin anda sürücülər Ceyhun Əhmədov, Əjdər Şəfiyev, həkim Rəsul Babayevi xəstənin yanına çatdırdılar.Həkim ilk yardım göstərdikdən sonra xəstəni xəstəxanaya aparmağı məsləhət bildi. Sağ olsunlar. Çox keçmədi ki, nevropatoloq həkim Aynurə Kazımova xəstənin yanına gətirildi. O, tezliklə mayinəyə və müalicəyə başladı. Həyat yoldaşım Şərqiyyə xanım yenidən bacarıqlı həkimin əli ilə həyata qayıtdı.

Hörmətli redaksiya, bu xeyirxah və alicənab insanlara, mərkəzi xəstəxananın bütün kollektivinə ailəmiz adından təşəkkür edirəm. Və deyirəm «Nə yaxşı ki, varsınız»!.

**Emin BARATOĞLU,**
**AYB-nin və AJB-nin üzvü,**
**«Qızıl Qələm» media mükafatı laureatı,**
**Bum qəsəbəsi.**

# Minnətdarlığımı bildirirəm

Avqust ayının əvvəllərində ayaqlarımda kəskin ağrılar başladı. Həkimlərə müraciət etdim. Onların məsləhəti ilə Qəbələ Müalicə Diaqnostika Mərkəzinin fizoterapiya və tibbi bərpa şöbəsində müəyyən proseduralara cəlb olundum. On gün davam edən bu proseduralar nəticəsində əvvəlki sağlamlığıma qovuşdum.

İşlərinə və bütün xəstələri kimi mənə yüksək qayğı ilə yanaşdıqlarına görə şöbənin həkimi Vüsalə Ağayevaya, tibb bacılarından Leyla Cəfərovaya və Şəfiqə Mikayılovaya minnətdarlığımı bildirirəm.

**Güllər PİRMURADOVA,**
**Qəbələ şəhər sakini.**

# Ətraf mühitə doğma münasibət hamı üçün vacibdir

Payız fəsli yaxınlaşır. Meşələr öz yaşıl libasını sarı, lacıvərd qırmızımtıl və sair rənglərlə əvəz etməkdədir. Meşələrin hər halı gözəldir.

Meşələr təkcə gözəllik deyil eyni zamanda su, təmiz hava və sağlamlıq mənbəyidir. Meşələri təbiətin «ağ ciyəri» adlandırırlar. Ancaq bu ağ ciyərlər insan kimi oksigen udub korbon buraxmır. Əksinə karbon qazını udub oksigen buraxır. Bir hektar meşə sahəsi 1 saatda 8 kq karbon qazını udur, bu da 1 saatda 200 nəfərin nəfəsi ilə havaya buraxılan karbon qazının həcminə bərabərdir.



Hazırda ölkəmizdə meşələrin ümumi sahəsi 1021 min hektardır ki bu da ölkə ərazisinin 11,8 faizni təşkil edir. Alimlər hər hansı bir ölkənin ümumi ərazisinin azı 25-30 faizinin meşə sahəsi ilə örtülməsini optimal vəziyyət hesab edirlər.

Bütün bünlara görə mövcud meşələrin qorunması, bərpası, yeni meşə sahələrinin salınması dövrümüzdə qarşıda duran əsas məsələlərdəndir.

Ulu öndər Heydər Əliyev meşələrin qorunmasına, yeni meşə massivlərinin salınmasına, yaşıllıqların yaradılmasına xüsusi diqqət yetirirdi. Keçən əsrin 90-cı illərinin axırlarında keçirdiyi müşavirələrdən birində ulu öndər demişdir: «Əgər kimsə sağlam ağacı kəsirsə, o nəinki xalqına, millətinə, ölkəsinə xəyanət edir. O öz ailəsinə, özü özünə xəyanət edir.Ona görə də, siz hər bir ağacın qorunması uğrunda mübarizə aparmalısınız». Bu münasibət sonrakı illərdə də davam etdirilib. Azərbaycan Respublikası Prezidentinin 22 may 2003-cü il tarixli sərəncamı ilə meşələrin bərpa olunmasına və artırılmasına dair Milli Proqram təsdiq olunub. Bu proqrama uyğun olaraq, Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən ildə orta hesabla 8-10 min hektar sahədə yeni meşələr salınır. Ölkə başçısı cənab İlham Əliyevin sərəncamı ilə 2010-cu il ölkədə «Ekologiya ili» elan edilmiş, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əşliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən, «Hərəmiz bir ağac əkək» kompaniyaları artıq hər il keçirilən ən-ənə halını almışdır.

Ümummilli lider Heydər Əliyevin həyata keçirməyə başlandığı və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi neft-qaz strategiyası Azərbaycanda qaz təminatı, enerji təchizatı sahəsindəki problemlərin sürətli həllinə yol açıb. Əhalinin qazla təminatının yaxşılaşdırılması meşələrin qırılmasının qarşısının alınması sahəsində ən uğurlu vasitədir. Respublika Prezidenti İlham Əliyev ölkə ərazisinin bütünlüklə qazlaşdırılması üçün mühüm tədbirlər həyata keçirir. Hazırda ölkə əhalisinin 95 faizi məişətində təbii qazdan istifadə edir.

Meşələri qorumaq hər bir vətəndaşın borcudur. Unutmayaq ki, meşələr çölləri küləkləprdən, güclü sellərdən qoruyur, torpağın eroziyasının qarşısını alır. Ətraf aləmi təmiz hava ilə, su ilə təmin edir. Təbiətdə bütün amillər bir-birilə əlaqədardır. İnsanlar təbiətdə çoxdan bəri qurulmuş qarşılıqlı əlaqələri pozaraq özləri özlərinə ziyan vurduqlarını çox gec anlayırlar. Yunan filosofu Demokritin təbiətə dair gözəl bir fikri var: «İnsan toxuculuqda hörümçəklərin, ev tikməkdə qaranquşların, oxumaqda bülbüllərin şagirdidir». Buna görə təbiətin, onun ayrılmaz hissəsi olan meşələrin qorunması, ona doğma münasibətin bəslənməsi hamı uçun son dərəcə vacibdir.



**Qüdrət CƏMALƏDDİNOĞLU,**
**«Qəbələ»**

# Sülh, birlik və həmrəylik ayı-Məhərrəm

Sentiyabr ayının 11-də bir çox müsəlman ölkələrində işlənən hicri-qəməri təqviminin 1440-cı ilinin birinci ayı-Məhərrəm ayı başlayır. Məhərrəm islam dininə görə 4 haram (Məhərrəm-haram edilmiş mənasındadır) aydan biridir. Belə ki, islam hökümlərində bu ayda savaşmaq, qan tökmək qadağan edilib. İslamşünaslara görə bu ayda bir sıra mühüm hadisələr baş vermişdir. Adəm peyğəmbərin yaradılması, İbrahim peyğəmbərin dünyaya gəlməsi və sair dindarlara görə bu aya təsadüf edir.

Bu ayın əsas hadisələrindən biri də Aşura və Kərbala hadisəsinin baş verməsidir. Hicri-qəməri təqviminin 40-cı ilində özünü qeyri-qanuni xəlifə elan etmiş əməvilər sülaləsindən olan Yezid Həzrət Peyğəmbərin nəvəsi, özünün haqq-ədaləti, doğruçuluğu ilə müsəlman aləmində şöhrət qazanmış imam Hüseynə ona (Yezidə) beyət etməyi tələb edir. Beyət etmək bir növ həmin adamı müqəddəs saymaq anlamına gəlir ki, imam Hüseyn islamın təməl dəyərlərini heçə sayan Yezidə beyət edə bilməzdi.

İmam Hüseynin gündən günə artan şöhrətindən qorxuya düşən Yezid onu aradan götürmək qərarına gəlir. Təqiblərdən bezmiş imam Hüseyn miladi 680-ci ildə tərəfdarlarının daha çox olduğu İraqın Küfə şəhərinə köçməyi qərara alır. O burada islamın saflığını pozanlara qarşı mübarizə aparmaq fikrində idi. Ancaq imam Hüseynə və tərəfdarlarına Kufəyə getməyə imkan verilmir. İmam Hüseyni, ailə üzvləri və tərəfdarlarını İraqın Kərbəla səhrasında 10 gün ac, susuz mühasirədə saxladıqdan sonra Hicri-qəməri təqvimi ilə 61-cı il Məhərrəm ayının 10-da Kufə valisinin silahlıları tərəfindən qətlə yetirilir. Bu qətliamda imam Hüseyn, iki oğlu, qardaşı, qardaşı oğlu, bacısı oğlanları da daxil olmaqla 72 nəfər tərəfdarı şəhid olur.

Hicri-qəməri təqvimi ilə Məhərrəm ayının 10-da baş verənlər islam tarixidə dönüş nöqtəsi sayılır.

İmam Hüseyn özünün və yaxınlarının canı bahasına islamın paklığını qoruyub saxlayır. Bu hadisədən sonra islamı zəiflətməyə çalışan əməvilər sülaləsi özü zəifləyir və tarixə qovuşur.

Peyğəmbərin islamın keşiyində durmuş sevimli nəvəsinin və ailə üzvlərinin qətlə yetirilməsi müsəlman aləmində böyük faciəyə çevrilir.

Bununla belə bu hadisə islam aləminin birliyini artırır. Hər il milyonlarla müsəlman Kərbəla qətliamının ildönümünü təkcə matəm kimi deyil, birlik, həmrəylik qəhrəmanlıq günü kimi qeyd edir. Zaman-zaman islam düşmənləri bu faciənin məzmununu dəyişmək, ondan müsəlmanlar arasında nifaq salmaq kimi istifadə etməyə çalışsalar da mənfur niyyətlərinə nail ola bilməmişlər. Əksinə, Məhərrəm ayında Hüseyn acısı–Kərbəla çölündə tənha, susuz qalan əzizlərini itirən, əzabla öldürülən 3-cü imamın acısı müsəlmanları bir araya gətirir. Son illərdə müsbət haldır ki, Məhərrəmin 10-cu günü olan Aşura günündə müsəlmanlar yas saxlamaqla yanaşı sosial yardımlaşma və minlərlə xəstəni həyata qaytaracaq qan verilməsi və sair kimi kimi humanitar aksiyalar keçirirlər.

**«Qəbələ»**